# *Ceyhun BAYRAMOV:* "Azərbaycan və Gürcüstan maraqlarına uyğun şəkildə siyasət həyata keçirir"



"Bəzi böyük dövlətlərin digər müstəqil və suveren ölkələrin daxili işlərinə qarışmaq cəhdi yeni tendensiya deyil. Bu, hər zaman baş verib".

Bu sözləri Gürcüstanın xarici işlər naziri Maka Boçorişvili ilə görüşdən sonra keçirilən birgə brifinqdə deyən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov onu da bildirib ki, başqa dövlətlərin daxili işlərinə qarışmaq cəhdləri bu gün açıq şəkildə özünü büruzə verir. Azərbaycan və Gürcüstan da hansısa böyük güclərin diktəsi ilə yox, ölkə maraqlarına uyğun şəkildə siyasət həyata keçirir.

"Müzakirələr fonunda Ermənistanın genişmiqyaslı silahlanması bizdə ciddi narahatlıq doğurur", - deyə xarici işlər naziri bildirib. AZƏRTAC xəbər verir ki, onun fikrincə, Azərbaycan və Gürcüstan ərazi bütövlüyü məsələsinə hörmət etsə də, regiondakı digər qonşumuz Ermənistan buna əməl etmir. Ermənistanın uzun illər işğalçılıq siyasətinə baxmayaraq, Azərbaycan sülh təklifini qarşı tərəfə çatdırıb. Son illərdə isə sülh müzakirələri barədə irəliləyişlər əldə olunub.

Azərbaycan ilə Gürcüstanın fiber-optika sahəsində də uğurla əməkdaşlığına toxunan Ceyhun Bayramov qeyd edib ki, xarici işlər nazirliklərinin ikitərəfli və çoxtərəfli formatda da əlaqələri yüksək səviyyədədir. "Gürcüstanlı həmkarımla beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı faydalı əməkdaşlıq məsələlərini, regional, o cümlədən Azərbaycanla Ermənistan arasında mövcud prosesləri də müzakirə etdik", - deyə C.Bayramov əlavə edib.

Azərbaycan.- 2025.- 17 yanvar (№ 10).- S.3.